UOT 37.01.

***Təhminə Mərdan qızı Rüstəmova,***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# TƏSVİRİ SƏNƏT ESTETİK DUYUMU FORMALAŞDIRAN ƏSAS VASİTƏ KİMİ

***Тахмина Мардан гызы Рустамова,***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ИЗОБРАЗИТЕЛЬНОЕ ИСКУССТВО КАК ОСНОВНОЕ СРЕДСТВО, ФОРМИРУЮЩЕЕ ЭСТЕТИЧЕСКОЕ ВОСПРИЯТИЕ

***Tahmina Mardan Rustamova,***
*teacher of Azerbaijan State Pedagogical University*

# FİNE ART İS A BASİC TOOL THAT SHAPES THE AESTHETİC SENSE

**Xülasə:** Elmi məqalədə təsviri sənətin estetik duyumun formalaşmasında rolu göstərilmişdir. Eyni zamanda, burada təsviri sənətin növləri, janrları və onların mahiyyət və məzmunu araşdırılaraq öyrənilmişdir.
***Açar sözlər:*** *təsviri sənət, mozaika, estetik, kompozisiya, qrafika, boyakarlıq, heykəltəraşlıq*

**Резюме:** В научной статье отмечена роль изобразительного искусства в формировании эстетического восприятия. В то же время в данной статье были исследованы типы, жанры, сущность и содержание изобразительного искусства.
***Ключевые слова:*** *изобразительное искусство, мозаика, эстетика, композиция, графика, живопись, скульптура*

**Summary:** The scientific article illustrates the role of descriptive art in the formation of aesthetic sensation. At the same time, the types, genres and their essence and content of descriptive art were investigated.
***Key words:*** *fine arts, mosaics, aesthetics, composition, graphics, painting, sculpture*

Şəxsiyyətin mənəvi dünyasında gözəllik təsəvvürləri (meyarları) incəsənət vasitəsilə formalaşaraq, termin, anlayışlar və bədii ifadə vasitələri (rəsm, heykəl, dekor, kompozisiya) şəklində əks olunur. Şüurlu, mükəmməl mənimsəmə estetik-emosional hisslərin yaranmasında və formalaşmasında mühüm rol oynayır. "Estetika" yunanca "estezis" sözündən olub, hiss etmək, qavramaq deməkdir. Gözəlliyin başlıca mənbələrini təbiət, cəmiyyət, ədəbiyyat, incəsənət və insan gözəlliyi təşkil edir. İnsanın gözəlliyi zahiri və daxili gözəlliyin vəhdətidir.

Varlığın insan tərəfindən estetik qavranması və düzgün əks etdirilməsi öz təbiəti etibarilə mürəkkəb prosesdir. Varlığın və incəsənətin bədii-estetik qavranması estetik tərbiyənin ilkin mərhələsini təşkil edir. Qavramanın dolğunluğu, tamlığı, parlaqlığı sayəsində insanda müəyyən estetik hisslər, varlığa estetik münasibət formalaşır. Estetik hiss gözəlliyi duymaq, ondan həzz almaq bacarığıdır. Estetik qavramanın doğurduğu hisslər çox müxtəlif çalarlara malikdir: sevinc-kədər, məhəbbət-nifrət, həzz-ikrah, həyəcan, qorxu, təşviş, gülüş və s. Estetik hisslər insanda estetik tələbatların əsasında durur: insanın gözəllikdən keçirdiyi dərin emosional həyəcanlar, hisslər onda bədii-estetik dəyərlərlə ünsiyyətə ehtiyac doğurur. Estetik şüur və hisslərin təsiri ilə estetik zövq formalaşır. Estetik zövq estetik ideal baxımından gözəlliyi qiymətləndirmək bacarığıdır. Estetik zövq əsasında insanda estetik mühakimə - varlığa, incəsənətə əsaslı, ümumiləşmiş ideya - emosional qiymətləndirmə bacarığı formalaşır.

Ali məktəbdə estetik tərbiyə bir neçə vəzifəni həyata keçirir:

1. Gənc nəsildə estetik baxış və təsəvvürlər, estetik şüur aşılamaq və inkişaf etdirmək.

2. Estetik hisslər və bu əsasda varlığa və incəsənətə estetik tələbat formalaşdırmaq.

3. Estetik zövq və mühakimə bacarığı formalaşdırmaq.

Azərbaycan və dünya incəsənəti tarixini təşkil edən əsərlər zaman keçdikcə mədəni, bədii, mənəvi dəyərlərin ifadəsi kimi meydana gəlmiş, milli və ümumbəşəri dəyərlərin maddiləşmiş daşıyıcılarına çevrilmişdir. Təsviri sənət incəsənətin bir növüdür. Xalq arasında incəsənət sözünün mənası bacarıq, ustalıq deməkdir. Təsviri sənət hər hansı bir əşyanı fəzada düzgün qeyd etmək və yaxud fikrindən keçəni təsvir etmək bacarığıdır. Təsviri sənət deyəndə insanın bədii yaradıcılığı nəzərdə tutulur. Təsviri sənətə rəsm, qrafika, boyakarlıq, heykəltəraşlıq, dekorativ tətbiqi sənət, bəzən memarlıq daxildir. Rəsm təsvirin əsasını təşkil edir. Rəssam müəyyən tablonu işləyərkən əşyaların formasını, həcmini, mühitdə mövqeyini rəsm dilində əks etdirir. Təsvirin həcmli, mühitin real görüntüsü üçün perspektiv və işıq-kölgə qanunlarına müraciət olunur. Rəsm kompozisiya ilə əlaqədardır. Kompozisiya tablonun ümumi quruluşu, ayrı-ayrı hissələrin əlaqəsi və onların bir-birinə uyarlığı deməkdir. Həbibov N yazır: “Kompozisiyanın kamilliyi hissələrin qırılmaz vəhdətində və birgə əlaqəsindədir. Kamillik rəssamlıq əsərində bütün elementlər bir-biri ilə qırılmaz şəkildə bağlı olur. Belə əsərdə heç bir şeyi artırıb-əksiltmək, yaxud da kiçildib-böyütmək qeyri-mümkündür” (4, s. 21).

Hissələrin vahid ritmə tabe edilməsi kompozisiyanın vacib şərtlərindəndir.

*Qrafika* təsviri sənətin növlərindən biridir. Burada dərin texniki üsullarla işlənmiş rəsmlər daxildir. Yunanca “*qraphike”* sözündən götürülmüş, “rəsm, şəkil” deməkdir. Qrafika üsulu ilə portret, mənzərə və s. janrlarda rəsmlər yaratmaq mümkündür. Qrafikanın işlənmə texnikası 2 hissəyə ayrılır. Onlardan birincisi ən qədim və *ənənəvi rəsmdir*. Karandaş rəsmi, əsasən, kağızda, bəzən isə parça üzərində işlənilir. Bu rəsmlər yalnız bir nüsxədə yaradılır. Qrafikanın ikinci növü q*ravür*dür. Rəsm yalnız vahid nüsxədə olursa, onda eyni keyfiyyətdə bir neçə nüsxə almaq mümkündür. Qravür çap qrafikasıdır. Buraya metal, ağac, daş və maqnezium aiddir. Metal və ya mis üzərində iynə ilə cızılmış, sonra büsma üsulu ilə işlənmiş qravürə *oford* deyilir. Daş üzərində həkk olunmuş qravür *litoqrafiya*, ağac üzərində həkk olunmuş qravürə isə *deyilir*, lito yunanca daş, ksilo yunanca ağac deməkdir. Nisbətən sonralar yaranmış *linoqravür* lindekmu qazmaqla işlənilir.

Qrafikanın müxtəlif janrları var:

1. *Kitab* qrafikası. Kitabın tərtibatı məsələsini həll edir.

2. *Dəzgah* qrafikası. Əsər bir nüsxədə yaradılır və bundan bir neçə nüsxə almaq mümkündür.

3. *Elmi-tədqiqat* qrafikası. Bura elmi cədvəllər, çertyojlar, sxemlər, xəritələr, tədris cədvəlləri aiddir.

4. *Plakat* qrafikası. Bir şəxsin ideya və fikirlərini kütləvi şəkildə xalqa çatdırmaqdan ibarətdir. Məsələn,” Mən fəxr edirəm ki, azərbaycanlıyam!”.

5. *Sənaye* qrafikası. Məhsulun tərkibini, onun əlamətlərini bildirir. Məsələn, açıqcalar, dəvətnamələr, sənaye məhsulları, paltar etiketləri və s. ola bilər.

Boyakarlıq əsərinin başlıca təsvir vasitələri rəsm və rənglərdən ibarətdir. Onu müxtəlif növlərə ayırmaq olar. Boyakarlığın ən qədim ibtidai forması divar rəsmləridir. Onlar ibtidai dövrdə mağaralarda çəkilən heyvan və insan təsvirlərindən tutmuş ən müasir ictimai binaların monumental təsvirlərini əhatə edir. Qədim dövrlərdə dini tikililər – məbədləri, məscidləri və kilsələri bəzəyən təsvirlər dini ideyaların təbliğinə yönəlirdi. Müasir dövrdə elm, mədəniyyət ocaqları, ictimai mərkəzlər onların ideyalarını bədii şəkildə təbliğ edən təsvirlərlə bəzənir. Divar rəsmlərinin çəkilməsi zamanı müxtəlif bədii-texniki materiallardan və üsullardan istifadə olunur. Bunlardan biri suvağı qurumamış divarda sulu boyalarla işlənən freska *(İtalyanca– “nəm”)* texnikasıdır. Qədim Misir və Qədim İkiçayarası dövründə nəinki Asiya və Avropa, hətta Afrika və Qədim Amerikanın möhtəşəm memarlıq abidələri məhz freska texnikası ilə işlənmiş rəsmlərlə bəzənmişdir. Bununla yanaşı, *mozaika* adlanan başqa bir texnika da geniş yayılmışdı. O, qeyri-şəffaf xırda rəngli şüşə parçalarını divarın yaş suvağına düzməkdən ibarətdir. Freskadan fərqli olaraq, mozaika yağışa, qara və başqa təbii maneələrə dözümlüdür. Qə-

dim Roma villalarındakı hovuzların dibindən mozaika orta əsrlərdə saray və məbədlərin divarlarına köçür və yüksək sənət növləri arasında özünəməxsus yer tutur. Məsələn, Bakıdakı “Nizami” metrosunu “Xəmsə”nin müxtəlif səhnələrinin (rəssam Mikayıl Abdullayev) təsvirləri bəzəyir.

Boyakarlığın ən geniş yayılmış forması *dəzgah* boyakarlığıdır**.** Kətan və ağac üzərində yağlı boyalarla çəkilən belə əsərlər molbert adlanan xüsusi dəzgahda yaradılır. Monumental boyakarlıq əsərlərindən fərqli olaraq dəzgah rəssamlığı əsərləri sərbəstdir və istənilən yerdə asıla bilər.

Teatr-dekorativ boyakarlığı dedikdə biz səhnə tamaşalarının tərtibatı ilə əlaqədar müxtəlif əlbəsələri nəzərdə tuturuq. Bu növ boyakarlıq əsərində hadisənin cərəyan etdiyi mühit, yəni məişət və geyimlər və dövrün adət-ənənələri, hadisə yerinin mənzərəsi əks olunur.

İncəsənət əsərləri müxtəlif janrlara bölünür: 1. Tematik tablo janrı - dini əsərlərə, əfsanələrə, yaxud rəvayətlərə işlənmiş əsərlər aiddir. 2. Batal janrı - bu mövzuya hərb səhnələrini təsvir edən və müharibə təsvirləri olan əsərlər aiddir. 3. Mənzərə janrı - bura təbiətin müxtəlif guşələrindən götürülmüş dağ, dərə, çəmən, çay, meşə, təbiət hadisələrindən götürülmüş tufan, ildırım, yağış, qar, iqlim landşaftlarından götürülmüş təsvirlər aiddir. Peysaj - fransız sözü olub, “hüdudlanmış ərazi” deməkdir. Məsələn, çay plantasiyası, üzüm tarlası, pambıq sahəsi, taxıl sahəsi və s. Bunu da qeyd etmək lazımdır ki, dəniz təsvirləri olan əsərlər marina, onu işləyən rəssamlar isə marinist adlanır. Dəniz təsvirləri işləyən ən məşhur rəssam Ayvazovski, Surikov, Repin. 4. Məişət janrı - xalqın gündəlik yaşayış tərzi, onların həyatı haqqında məlumat verir. Görkəmli Azərbaycan rəssamı Əzim Əzimzadənin yaradıcılığında məişət janrı mühüm yer tutur. ”Varlı evində toy”, “Kasıb evində toy”, “Varlı evində Ramazan bayramı”, “Kasıb evində Ramazan” və s. əsərləri misal göstərə bilərik. Əzimzadə Ə. həm də Azərbaycanın karikaturaçı rəssam olmuşdur. M.Ə. Sabirin bütün əsərlərinə illüstrasiyalar işləmişdir. 5. Portret janrında konkret şəxslərin təsvirləri verilir. 6. Natürmort janrı cansız təbiət deməkdir.

Heykəltəraşlıq - təsviri sənətin növlərindən biridir. Heykəltəraşlıqda insan və ya hər hansı təsvir obyekti həcmli yaradılır. Adətən, insan, bəzən isə heyvan təsvir edən (animalistik janr) heykəltəraşlığın boyakarlığa nisbətən imkanları məhduddur. İndiyə qədər, əsasən, 2 cür heykəl məlumdur: 1-ci qisim heykəllərə həcmli və ya dəyirmi heykəllər deyilir. Bunlara hər tərəfdən baxmaq mümkündür. 2-ci qisim heykəllərə isə relyef heykəllər deyilir. Relyef 2 hissəyə ayrılır. 1. Barelyef - basrelyef sözündən götürülmüş, alçaq relyef deməkdir. 2. Qorelyef, haut relyef sözündən götürülmüş yüksək relyef deməkdir. Heykəltəraşlıq sənətinin 3 sahəsi məlumdur. 1. Monumental; 2. Dekorativ; 3. Dəzgah heykəltəraşlığı; 4. Monumental heykəltəraşlıq. Əsərləri açıq havada qoyulur. Böyük şəhərlərin meydanlarında, bəzən isə ictimai binaların daxilində qoyulur. Dekorativ heykəllər, əsasən, memarlıq abidələrinin bəzədilməsinə xidmət edir. Onlar orta əsrlərdən bu günə kimi parkları, bağları, fəvvarələri bəzəyir. Memarlıq abidələri ilə bağlı olmayan, park və fəvvarələrin bəzədilməsi üçün nəzərdə tutulmayan, əsasən, muzeylərdə nümayiş olunan heykəllər dəzgah heykəltəraşlığına aiddir. Heykəltəraşlıq əsərinin hansı materialdan və hansı texnikada hazırlanmasının böyük əhəmiyyəti var. Adətən, heykəllər gil, ağac, plastilin, mum, metal və s. hazırlanır.

Təsviri incəsənət əsərləri ilə təmasda olmaq tələbələrə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə, bir növ, mədəni mübadilə prosesi yaşadır. Təsviri sənət əsərlərinin şəxsiyyətə göstərdiyi təsir nəticəsində tələbələrdə estetik-emosional meyar və normalar, mənəvi zənginləşmə və mədəni tolerantlıq formalaşır, hissiyyat diapazonu daha da genişlənir. Təsviri sənət əsərlərinin qavranılması estetik zövqün, emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir.

**Problemin aktuallığı.** Elmi məqalə gələcək nəslin estetik zövqünün və estetik duyumunun formalaşdırılması baxımından aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə təsviri sənətin gələcək nəslin estetik duyumunun inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət daşıması ilə yanaşı, təsviri sənətin növlərinin öyrənilməsi baxımından da elmi yeniliklərlə zəngindir.

**Problemin tətbiqi əhəmiyyəti.** Elmi məqalədə irəli sürülən nəzəri fikirlərdən təsviri sənətlə bağlı metodik vəsaitlərin, dərslik və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Azərbaycanda boyakarlığın tarixi. https://gulchinbabaeva.wordpress.com/
2. Boyakarlıq. http: //kin Boyakarlıq https:// 777word. wordpress. com/2010/ 10/ 06/boyakarlıq/
3. Əfəndiyev R., Nəcəfov M., Tərlanov M. Təsviri incəsənət. Bakı: Azərnəşr, 1962.
4. Həbibov N. Təsviri sənət haqqında. Bakı: Gənclik, 1967.
5. Əkbərova M. Təsviri sənət və onun tədrisi metodikası. Bakı: "Avanqard E.H.'1 MMC, 2012.
7. Həsənzadə C., Rüstəmov Ç., Hacıyeva F. İncəsənət haqqında söhbətlər. Bakı: ADPU, 1997.
8. Təsviri sənətin nəzəriyyəsi növləri və janrları. https: //kayzen. az/ blog/ kulturologiya /5583/

**E-mail:** tahminarustamova.tr@list.ru
**Rəyçilər:** *ped. ü. fəls. dok., dos*.Ç. Rüstəmov,
*ped. ü. fəls. dok., dos*. Y. Cəlilova
**Redaksiyaya daxil olub:** 03.12.2018.